## *Ümmet Artuç:*

# "AMEA rəhbərliyi Azərbaycan-Türkiyə elm, təhsil əlaqələrinin uğurla davam etməsinə mühüm töhfələr verir"

**Azərbaycan və Türkiyə rəhbərləri arasında mövcud olan yüksək səviyyəli münasibətlər bütün sahələrdə, o cümlədən elmdə və təhsildə əməkdaşlığın dinamik inkişafına mühüm təsir göstərir.**



Bu fikirləri AMEA-nın 80 illik yubiley tədbirində iştirak edən Ankara Universiteti rektorunun müşaviri Ümmet Artuç açıqlamasında bildirib.

O, Azərbaycan-Türkiyə qardaşlığının nümunəvi xarakter daşıdığını, iki ölkə arasında əlaqələrin ardıcıl şəkildə inkişaf etdiyini və genişləndiyini vurğulayıb.

Ümmet Artuç iki qardaş ölkə arasında elm, təhsil əlaqələrinin uğurla davam etdiyini, AMEA rəhbərliyinin bu istiqamətdə mühüm töhfələr verdiyini diqqətə çatdırıb. O, həmçinin Ankara Universitetinin həyətində Ümummilli Lider Heydər Əliyevin şəxsən əkdiyi ağacın bu gün də böyüyərək dostluq və qardaşlığı simvolizə etdiyini bildirib.

Qonaq AMEA-nın 80 illik yubileyi münasibətilə Ankara Universitetində də geniş tədbirin keçirildiyini xatırladaraq qeyd edib ki, TÜBA-nın təşəbbüsü və Ankara Universitetinin dəstəyi ilə təşkil olunan tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə yanaşı, beynəlxalq və yerli qurumların nümayəndələri, diplomatlar və elm xadimləri iştirak ediblər. "Bakıda təşkil olunan yubiley tədbirində də iştirak etmək bizim üçün böyük məmnuniyyətdir", - deyə rektor müşaviri vurğulayıb.

Ümmet Artuç Azərbaycan alimlərini 80 illik yubiley münasibətilə təbrik edib, AMEA rəhbərliyinə və elm xadimlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Elm:xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.24.